# İtkin düşən şəhid Münasib Mehdiyevlə Samuxda vida mərasimi keçirilib



**Birinci Qarabağ müharibəsində itkin düşən şəhid Mehdiyev Münasib Namaz oğlunun nəşi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən müəyyən olunaraq Samux rayonunun Qovlarsan kəndində ailəsinə təhvil verilib.**

AZƏRTAC xəbər verir ki, vida mərasimindən sonra şəhidin nəşi Qovlarsan kənd qəbiristanlığında dəfn olunub.

Mərasimdə şəhidin ailə üzvləri ilə bərabər, rayon icra hakimiyyətinin rəsmiləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Hərbi orkestrin ifası və yaylım atəşinin müşayiəti ilə şəhidin nəşinin qalıqları torpağa tapşırılıb. Qeyd edək ki, Münasib Mehdiyev 1973-cü il avqustun 28-də Samux rayonunun Qovlarsan kəndində anadan olub. O, 1992-ci il iyulun 19-da Ağdərə rayonunun Həsənriz kəndi istiqamətində itkin düşmüş sayılırdı.

Azərbaycan.- 2025.- 19 aprel (№77).- S.5.